INVEST AZ

**“İnvest-AZ İnvestisiya Şirkəti”QSC-nin**

**AR Mülki Məcəlləsinin 99.2 maddəsinin tələblərinə əsasən 2021-ci il üzrə açıqlamalı olduğu məlumatlar:**

| **2021-ci il üzrə İdarəetmə orqanının hər bir üzvünə verilmiş ödənişlər haqqında ümumi MƏLUMAT** | | | |
|---|---|---|---|
| № | Adı Soyadı Ata adı | “İnvest-AZ İnvestisiya Şirkəti” QSC-də tutduğu vəzifə | Ödənişin məbləği |
| 1 | Qurbanzadə Şəhriyar Ağazeynal oğlu | Direktor | 49,284 AZN |

| | |
|---|---|
| **2021-ci il üzrə Səhmdar kapitalının gəlirliyi** | 2021-ci il üzrə audit olunmuş maliyyə hesabatlarına əsasən, şirkətin cəmi kapitalı 3,842,106 manat, il üzrə xalis mənfəəti 1,242,368 manat təşkil etmişdir. Beləliklə, dövr ərzində səhmdar kapitalının gəlirliyi 32.3 faiz təşkil etmişdir. Cəmiyyətin, il üzrə əldə olunmuş xalis və bölüşdürülməmiş mənfətindən səhmdarlara 1,346,800 manat divident ödənilmişdir. |
| **2021-ci il üzrə cəlb edilmiş toplam maliyyə vəsaiti** | 4,680,100 AZN |
| **2021-ci il üzrə Cəmiyyətin qiymətli kağızlarının dövriyyəsi və gəlirliliyi** | İstiqrazların sayı: 2057<br>Nominal dəyəri: 1000 USD<br>Gəlirlilik: 6%<br>Dövriyyə: 19 218 USD |
| **2021-ci il üzrə İnvestisiyaların həcmi və mənbəyi** | 288,600 AZN |

## Dividend Siyasəti

**“İnvest-AZ İnvestisiya Şirkəti” QSC-nin Dividend Siyasəti** Azərbaycan Respublikasının qanunvericiliyinə, Azərbaycan Respublikası Mərkəzi Bankının normalarına, Cəmiyyətin Nizamnaməsinə və digər aidiyyəti sənədlərə uyğun hazırlanmışdır.

Siyasət dividendlərin hesablanması,nümayiş olunması, dəyəri, forması və ödəniş müddətlərinə dair Cəmiyyətin prosedurlarını əks etdirir. **Xalis mənfəətin dividendlərin ödənişinə yönəldilməsi** Cəmiyyətin strategiyasının tələblərinə və Səhmdarların Ümumi Yığıncağında verilmiş  qərara əsasən həyata keçirilir.

**Siyasətin məqsədi** Cəmiyyətin dividend uçotunun aparmasının əsas prinsipləri müəyyən edilir; Dividend uçotunun idarə edilməsi çərçivəsində səlahiyyətlərin müəyyən edən qaydalar tərtib edilir və Azərbaycan Respublikasının qanunvericiliyinin və Cəmiyyətin daxili normativ sənədlərinin tələblərinin icra və riayət olunması təmin edilir. Siyasətin əsas məqsədi hər il üçün davamlı və etibarlı dividend siyasətini həyata keçirmək və bu siyasətdən hər hansı bir uzaqlaşmanın qarşısını almaqdan ibarətdir.

**Dividendlərin elanı və ödənilməsi**, o cümlədən ödənişlərin məbləği və proseduru Cəmiyyətin illik təsərrüfat-maliyyə fəaliyyətinin nəticəsi barədə kənar audit tərəfindən hesabat təsdiq edildikdən sonra Səhmdarların Ümumi Yığıncağı tərəfindən müəyyən edilir.

Dividendlər Cəmiyyətin xalis və bölüşdürülməmiş mənfəətindən ödənilir və səhmdarlar arasında onların sahib olduqları hər bir səhmlərin sayına proporsional şəkildə bölüşdürülür.

Səhmdar olan şəxslər, mənfəət bölüşdürülməsi nəzərdə tutulan maliyyə ilində dividend almaq hüququna malik olur.

**Elan edilmiş dividendlər** açıqlandıqdan sonra səhmdarlara ödənilməlidir. Elan edilmiş dvidendlərin ödənilməsi şərtləri səhmdar yığıncaqının gündəliyində qəbul edilmiş şərtlər əsasında həyata keçirilir.